

# PwC Azerbaijan Times

## 06 saylı Buraxılış

## Aprel 2019

## Buraxılışın əsas xəbərləri

- “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər olunmuşdur.
- Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti 03 aprel 2019-cu il tarixidə Fərman imzalamışdır.
- 29 mart 2019-cu il tarixində Azərbaycan Respublikasının “Mediasiya haqqında” qanunu qəbul olunmuşdur.
- PwC–nin Azərbaycandakı Akademiyası “Daxili Nəzarət ” üzrə yeni təlim elan edir

## Qeyd edilən məlumatlarla bağlı hər hansı sualınız yaranarsa bizə müraciət edin



**Arif Quliyev**
Vergi və Hüquq Xidmətləri Departamentinin Rəhbəri, İdarəedici Direktor
arif.guliyev@pwc.com



**Elçin Məmmədov**
Direktor, Hüquqi Praktikanın Rəhbəri
elchin.mammadov@pwc.com



**Elnur Məmmədov**
Direktor, Vergi Hesabatlığı və Strategiyası Praktikasının Rəhbəri
elnur.mammadov@pwc.com



**Aysel Süleymanova**
Marketinq və Kommunikasiya məsələləri üzrə Rəhbər
aysel.suleymanova@pwc.com

## Bizi İzləyin

PwC Azerbaijan
PwC Azerbaijan
PwC Azerbaijan
www.pwc.az

## PwC Azərbaycan

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan
Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

© 2019 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etmədən (və ya etməmədən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

PwC Azerbaijan Times
06 saylı Buraxılış
Aprel 2019

## "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər olunmuşdur.

5 mart 2019-cu il tarixli dəyişikliyə əsasən açıq məkanda reklam yerləşdirmək üçün reklam yayıcısının ərazidən asılı olaraq, Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi, və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən alınmış icazə sənədi bundan sonra üç il müddətinə veriləcəkdir. Lakin, qanuna dəyişikliklərdən əvvəl sözügedən icazə sənədinin ən çox 1 il müddətinə verilməsi mümkün idi. Bundan əlavə, xidmət, ticarət və ya digər obyektlərin giriş hissəsində, divarında yerləşdirilən və həmin obyektlərin adını, mənsubiyyətini, fəaliyyət növünü, ünvanını və iş rejimini istehlakçıya çatdıran sayı 1-dən çox olmayan lövhələr 1 kvadratmetrden (dəyişikliklərdən əvvəl bu rəqəm 2 kvadratmetr təşkil edirdi) çox olduğu halda reklam yerləşdirilməsi ilə bağlı icazə sənədi əldə olunmalıdır.

## Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti 03 aprel 2019-cu il tarixində Fərman imzalamışdır.

Fərmanda məhkəmə-hüquq sisteminin effektivliyinin və səmərəliliyinin artırılması istiqamətində mühüm məsələlər öz əksini tapmışdır.

Həmçinin, vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, eləcə də, sahibkarlıq fəaliyyəti ilə bağlı digər məsələlərə dair ixtisaslaşmış məhkəmənin yaradılması qərara alınmışdır.

Bundan əlavə, Fərmanda məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə müvafiq olaraq proporsional olması, məhkəmələrin hakimlərinin ümumi sayının 200 nəfər artırılması nəzərdə tutulmuşdur.

## 29 mart 2019-cu il tarixində Azərbaycan Respublikasının "Mediasiya haqqında" qanunu qəbul olunmuşdur.

Qanun mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir və onun məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir. Mediasiya mülki işlər və iqtisadi mübahisələr, həmçinin, ailə, əmək, inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə tətbiq edilir.

Qanuna əsasən Mediasiya, mediatorun (peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün cəlb olunmuş fiziki şəxs) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli prosesidir. Mediasiya prosesi tərəflər arasında bağlanan "mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında və ya iqtisadi, əmək, ailə mübahisələri zamanı isə ilkin mediasiya sessiyasında iştirak etməklə həyata keçirilir. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" tərəflər arasında yaranmış mübahisənin məhkəməyə verilməsinə qədər və ya məhkəmədə işə baxılan zaman tətbiq edilə bilər.

Qanunda göstərilmişdir ki, ali təhsilli, yaşı 25 tamam olmuş və ən azı 3 illik iş stajına malik fiziki şəxslər mediator ola bilərlər. İlkin hazırlıqdan keçdikdən sonra namizədlərə mediasiya təlimi qurumu tərəfindən sertifikat təqdim olunur. Mediatora hər iki ildə bir dəfədən az olmayaraq ixtisas artırılması kursundan keçmək tələb olunur.

Tərəflər arasında "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması məhkəmədə tərəflər arasında baxılan mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə icraatın dayandırılmasına səbəb olur. Uğurlu mediasiya mediatorun və mübahisənin tərəflərinin imzalanmalı olduğu barışıq sazişinin bağlanması ilə nəticələnməlidir. Tərəflər arasında barışıq sazişində ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır. Əks halda tərəflər barışıq sazişinin məcburi icrası edilməsi üçün onu məhkəmədə və ya notariusda təsdiq edə bilər. Barışıq sazişinin qanuna zidd olduğu aşkar edilərsə bu onun məhkəmə və ya notarius tərəfindən təsdiqinə imtina olunması üçün əsasdır.

## 9 aprel 2019-cu il tarixində "ASAN Viza" sistemi haqqında Əsasnamə"yə dəyişikliklər edilmişdir.

Dəyişikliklərə əsasən, "ASAN Viza" sistemi ilə birdəfəlik və ya çoxdəfəlik elektron vizanın 3 iş günü müddətində, **birdəfəlik elektron vizanın** sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə 3 saat ərzində, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində verilməsi təmin edəciləcək.

## PwC –nin Azərbaycandakı Akademiyası "Daxili Nəzarət " üzrə yeni təlim elan edir.

Seminarın Mövzusu

- Daxili nəzarətin cari konsepsiyaları (COSO)
- Daxili nəzarət anlayışı

- Daxili nəzarət məqsədləri
- Daxili nəzarət sisteminin komponentləri
- Daxili nəzarət sisteminin məhdudiyyətləri

---

Kurs zamanı iştirakçıları “Alışlar” və “Satışlar” biznes proseslərinin nəzarət sistemlərində mümkün çatışmazlıqlar daxil olmaqla, risklərin aşkar edilməsi və nəzarət prosedurlarının müəyyən edilməsi üçün praktiki tapşırıqlar yerinə yetirəcək.

---

### Təlimin keçirilmə dili və tarixi

- 5-6 may 2019-ci il (təlimin keçirilmə vaxtı: 9:30- 17:30)
- Seminarın keçirilmə dili: İngilis dili

### İştirak haqqı:

- Hər bir iştirakçı üçün - 650 AZN (ƏDV daxil olmaqla);
- 12 nəfərlik qrupdan ibarət korporativ müştərilər üçün - 5,000 AZN (ƏDV daxil olmaqla)

### Təlimçilər

Otabek Sidikov – Baş Menecer | Risklərin təhlili və nəzarəti qrupu

Ülvi Mikayılov - Baş Menecer | Risklərin təhlili və nəzarəti qrupu



### Qeydiyyat və əlavə məlumat üçün:

**Sevinc Ələkbərova**

PwC Akademiyasının Azərbaycan üzrə Meneceri

+994 12 497 2515
Sevinj.Alekperova@pwc.com